Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik

**Uşaq mütaliəsinə rəhbərlik edənlər müəssisələr, mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik:** Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərliyə köməklik məqsədilə uşaq mütaliəsinə rəhbərlik edən müəssisələr, mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. R.Məmmədli ixt.red. və burax.məsul Ş. Qəmbərova; red.K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

**Uşaq hüquqları haqqında**
**Azərbaycan Respublikasının Qanunu**
**Maddə 16. Uşağın əsas vəzifələri**

Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

Bu vəzifələrin uşaq tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.

## Tərtibçidən

Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır. Xalqımızın mədəni inkişafında böyük rol oynayan mənbələrdən olan uşaq kitabxanaları gənc nəslə mədəni xidmət göstərməyi, məktəbli oxucuların mütaliəsinə düzgün rəhbərlik etməyi, onlarda vətənpərvərlik, cəsurluq, doğruculuq, ləyaqət və bu kimi gözəl hislər tərbiyə etməyi qarşısına məqsəd qoymuşlar. Oxucu biliyinin zənginləşməsində maraq və mütaliə böyük rol oynayır. Gənc nəslin hərtərəfli inkişaf etməsi, mənəvi cəhətdən gözəl olması üçün məhz uşaq ədəbiyyatının mütaliəsi zəruridir. **“Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik”** vəsaiti bu baxımdan, yəni uşaq ədəbiyyatının oxucular arasında təbliği və mütaliəyə həvəsi artırmaq məqsədilə tərtib olunmuşdur.

Vəsaitdə olan materiallar 4 bölmədə yerləşdirilmişdir:

I. Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik;

II. Məktəbəqədər yaşlı uşaqlarla iş;

III. Məktəbəqədər yaşlı uşağın qiraətində əmək və təbiət mövzusu. Estetik tərbiyə;

IV. Məktəbəqədər yaşlı oxucular arasında bədii kitablarla iş.

Uşaq bağçaları, məktəb, lisey və s. kitabxanaların kitabxanaçıları, uşaq mütaliəsi ilə məşğul olan mütəxəssislər bu vəsaitdən istifadə edə bilərlər.

## I Bölmə: Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik

Kitab bəşər mədəniyyətinin ən böyük nailiyyətlərindən biridir. Dünya xalqlarının böyük tarixə malik zəngin, rəngarəng kitab mədəniyyəti xəzinəsində Azərbaycanın kitab sərvəti özünəməxsus yer tutur. Elmin, təhsilin, incəsənətin, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir.

Kitabxanada uşaq mütaliəsinə rəhbərlik elmi-metodik fənn olub, kitabxanaşünaslığın tərkib hissəsi kimi ictimai elmlər sahəsində tanınmışdır. Uşaq mütaliəsinə rəhbərlik tərbiyəvi prosesdir. Odur ki, bu fənn bir elm kimi pedaqogikanın, uşaq mütaliəsi pedaqogikasının tərkib hissəsidir. Uşaq mütaliəsinə rəhbərlik anlayışı ayrı-ayrı kitabxanaşünaslar tərəfindən müxtəlif cəhətdən izah olunur. Kitabxanada məktəbəqədər yaşlı uşaqlarla, kiçikyaşlı məktəblilərlə aparılan bütün işlər bu anlayış üzrə həyata keçirilir. Kitabxanalar uşaqların bir şəxsiyyət kimi tərbiyə olunmasını əsas məqsəd kimi qəbul edib, onların mütaliəsinə rəhbərlik edərək işinin bütün sistemi ilə azyaşlı oxucuların mütaliəsinin məzmununa məqsədyönlü təsir göstərirlər. Kitabxana məktəblilərdə kitaba, mütaliəyə marağı inkişaf etdirir, oxucu sorğularını formaşaldırır, ədəbi zövq və marağı tərbiyə edir, ədəbiyyatla daim təmasda olmağa həvəs aşılayır. Kitab bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcısıdır. 1999-cu ildə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il 27 dekabr tarixli "2005-2006-cı illərdə Azərbaycan dilində latın

qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısını təsdiq edilməsi haqqında” sərəncamları ölkə Prezidentinin bütövlükdə mədəniyyətə və mədəni dəyərlərimizə diqqət və qayğısının bariz nümunəsidir. Bu gün paytaxtın kitab mağazalarından müxtəlif uşaq kitablarına rast gəlmək olar. Uşaq ədəbiyyatı uşaqların yaş səviyyəsinə uyğun üslubda yazılır. Uşaqlar üçün əsər yazan hər bir yazıçı yaş səviyyəsini nəzərdən qaçırmamalıdır. Burada uşağın ictimai mühiti, inkişafı, zövqü, nitqi, bilik dairəsi də nəzərə alınmalıdır. Bununla belə, heç bir vaxt unutmamalıyıq ki, uşaqlar yaş etibarilə daim dəyişilir, onlar dövrdən-dövrə, nəsildən-nəslə dəyişilirlər. Məktəbəqədər yaşlı oxucuların, kiçikyaşlı məktəblilərin (7-14 yaş) oxuduğu bədii əsərlərin dili aydın və rəvan olmalıdır. Yığcam sujetli nəsr əsərlərinin dilində də lirizmə üstünlük verilməlidir. Çünki yorucu əsərlər uşağı mətləbdən uzaqlaşdırar, məzmun yaddan çıxar. Dünya uşaq ədəbiyyatı Şərq ədəbiyyatından qədim hind abidəsi “Kəlilə və Dimnə”, ərəb xalqlarının əfsanələri ilə zəngin olan “Min bir gecə”, bir çox şərq xalqlarının uşaq ədəbiyyatı nümunələri toplanmış “Oxuyan piyalə” kitabı, ümumiyyətlə, Şərq aləmi, psixologiyası və Şərq mədəniyyəti haqqında geniş və zəngin bilik əldə etməyə imkan verir. Həmçinin Qərb ədəbiyyatının ən nadir nümunələri Qrimm qardaşlarının nağılları, Andersenin nağıl və hekayələri, C.Sviftin “Qulliverin səyahəti”, M.Tvenin, J.Vernin, M.Ridin, C.Dikkensin, C.Rodari və digər görkəmli sənətkar yazıçıların əsərlərinin oxu imkanlarını xeyli artırmışdır. Respublikamızda dünya uşaq ədəbiyyatının incilərinə böyük maraq olduğundan həmin nəşrlər ana dilimizə tərcümə edilərək uşaqların ixtiyarına verilir. Bununla belə, kiçikyaşlı oxucular kitabxanalardan yararlanmalıdırlar. Onlara valideynləri müəyyən istiqamət verməlidir. Azərbaycan cəmiyyəti həmişə

uşaqlara məhəbbətlə yanaşıb, onların sağlam və gümrah, eyni zamanda savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmağa çalışıb. Kitabxana sərbəst kitab seçməyi öyrədir, kitabdan istifadə üçün vacib olan bilik və vərdişlərin inkişafına, eləcə də, oxunanları düşünməyə və dərk etməyə fəal təsir göstərir. Sistemli mütaliəyə yönəldir, oxunanları tənqidi yanaşmağa kömək edir. Kitabxanada uşaq mütaliəsinə rəhbərlik problemi fəlsəfənin, sosiologiyanın, pedaqogikanın, psixologiyanın, ədəbiyyatşünaslığın, kitabxanaşünaslığın və sənədşünaslığın üzərinə düşür. Kitabxanalarda uşaqların mütaliəyə rəhbərlik işi pedaqogikanın və kitabxanaşünaslığın əsas prinsipləri üzərində qurulur. Bu prinsiplər 3 yerə ayrılır. Birinci qrup prinsiplər metodoloji əsasını təşkil edir. Buraya məktəblilər üçün ədəbiyyat tövsiyəsinin məzmununda müasir biliklərin püxtələşdirilməsində elmilik məsələsi daxildir. İkinci qrup prinsiplər uşağın yaş dövrünün psixoloji-fizioloji xüsusiyyətlərinə əsaslanır. Üçüncü qrup prinsiplər ənənəvi pedaqoji prinsiplərdir. Burada mütaliəyə rəhbərlik üçün nəzərdə tutulan bütün tərbiyəvi təsir üsullarında və formalarında anlaşıqlılıq, əyanilik və əyləncəlilik əsas götürülür. Psixoloji-pedaqoji prinsiplər uşaq mütaliəsinə rəhbərliyin tərbiyə-təhsil vəzifələrinin həllində baş verən müvəffəqiyyətləri, yəni uşaqların intellektual, əxlaq, estetik, bədii inkişaf, dünyagörüşü, vətənpərvərlik, biliyə can atmaq, əməksevərlik kimi cəhətlərin formalaşmasının əsasını müəyyən edir. Bu vəzifələr uşaqlarla aparılan kitabxana işinin müxtəlif istiqamətlərində həyata keçirilir.

## Kitab, mütaliə haqqında hikmətli kəlamlar

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Yaxşı kitab çox qiymətli xəzinədir.

**Həsən bəy Zərdabi,**
*Azərbaycan mətbuatının banisi*

Axmaqlarla oturub-durmaqdansa, kitabla tənha oturmaq yaxşıdır.

**Qasım bəy Zakir,**
*Azərbaycan şairi*

Kitab-sənin ilk dostundur.

**Mirzə Ələkbər Sabir,**
*Azərbaycan şairi, ictimai xadimi*

Kitablar bizi ötən əsrlərin mənəvi həyatının varisi edir.

**Nəcəf bəy Vəzirov,**
*Azərbaycan yazıçısı, dramaturqu*

Az bildiyini başa düşmək üçün çoxlu oxumaq lazımdır.

**Mişel Monten,**
*fransız yazıçısı və filosofu*

Kitab bir limandı mənim üçün. Kitablarda yaşadım və kitablardakı insanları küçələrdəkindən daha çox sevdim.

**Cemil Meriç,**
*türk yazıçısı*

Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisiylə dolduracaq. Kitab insan ruhunun müqəddəs yazısıdır. Kitabı sevin, çünki o sizə

insanları sevməyə öyrədəcək və fikirlərinizi aydınlaşdırmaqda köməkçi olacaq.

**Maksim Qorki,**
*rus yazıçısı*

Kitab bir nəslin o biri nəslə qoyub getdiyi mənəvi vəsiyyətdir. Kitab nəsillərin bir-birinə vəsiyyətidir.

**Aleksandr İvanoviç Gertsen,**
*rus yazıçısı*

Kitab ol, hamıya açılma; qoy səni ancaq anlayanlar oxusun!

**Əbu Turxan,**
*ensiklopedik alim, filosof*

Kitab olmayan ev ruhdan ayrılan bədənə bənzər.

**Markus Tullius Siseron,**
*italyan natiq, filosof, hüquqşünas*

Kitab sahilsiz dəniz, biliklər ümmandır. Kitab təfəkkürün yorulmayan qanadlarıdır.

**Aybek,**
*özbək şairi, yazıçısı*

Kitablar, heç solmayacaq bitkilərdir.

**Robert Herrik,**
*ingilis şairi*

Kitablar, itmiş başların abidələridir.

**Sir Villiam Davenant,**
*ingilis yazıçısı, dramaturqu*

Kitab heç aldatmayan bir yoldaşdır.

**Villiam Gilbert,**
*ingilis alimi*

Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir. Mütaliə insana yaxşı danışma və anlama bacarığı verir.

**Frensis Bekon,**
*ingilis filosofu, tarixçisi*

Kitablarım mənə çatacaq qədər böyük bir krallıqdır. Kitab mənim üçün, tacdan qiymətlidir.

**Uilyam Şekspir,**
*ingilis yazıçısı*

Mən, kitablarımı yaratmadan əvvəl kitablarım məni yaratdılar.

**Mişel Monten,**
*fransız yazıçısı və filosofu*

Kitabsız yaşamaq; kor, kar, dilsiz yaşamaqdır.

**Luçiy Anney Seneka,**
*italyan filosofu*

İnsan güc ilə yox, mütaliə  etməklə ağıllanır.

**Cordano Bruno,**
*italyan filosof-panteisti, şairi*

Əsl təhsil yalnız mütaliə ilə əldə edilir.

**Nikolay Rubakin,**
*rus yazıçısı, biblioqraf*

Kitab ruhu qidalandırır, insanı ucaldır və möhkəmləndirir.

**Uilyam Meykpis Tekkerey,**
*ingilis yazıçısı*

Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir.

**Rene Dekart,**
*fransız filosofu, astroloq*

Yaxşı kitab müəllifin bəşər nəslinə hədiyyəsidir.

**Çingiz Aytmatov,**
*qırğız yazıçısı*

Yaxşı kitab aysberqə oxşayır, onun yeddi-səkkiz hissəsi suyun altında gizlənib.

**Ernest Heminquey,**
*amerikalı yazıçı, jurnalist*

Yaxşı yazan müəllifləri oxuduqca, yaxşı danışmağı öyrənirsən.

Mədəniyyət – oxuduğun kitabların sayı deyil, anladığın kitabların sayıdır.

Kitab oxuyanlar həmişə televizora baxanları idarə edəcəklər.

Kitab həmişə filmdən daha yaxşıdır, çünki təxəyyüldə xüsusi effektlərə məhdudiyyət yoxdur.

Nə qədər çox oxuyursan, o qədər az yamsılayırsan.

İnsanlar iki kateqoriyaya bölünürlər: kitab oxuyanlar və kitab oxuyanlara qulaq asanlar.

Beyin üçün oxumaq – bədən üçün idman etmək kimidir.

Ağıllı olmaq üçün 10 kitab oxumaq bəs edir. Amma o 10 kitabı tapmaq üçün yüzlərlə kitab oxumaq lazımdır.

Kitablara etibar et, onlar ən yaxındırlar. Onlar lazım olanda susurlar, danışmaq lazım olanda isə sənə bütün dünyanı göstərirlər.

## Kitab sərgisi
















































## II Bölmə: Məktəbəqədər yaşlı uşaqlarla iş metodu

Kitabxana insanların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. Bəli, kitabxana bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir. Tarixi yaşadan, nəsilləri bir-birinə qovuşduran kitablardır və kitab mütaliəsi insanın şəxsiyyət kimi formalaşmasında, onun əqli, zehni, əxlaqi və estetik zövqünün inkişafında əvəzsiz rol oynayır. Mütaliə oxucunun hərtərəfli inkişafına – onun mədəni səviyyəsinin və biliyinin artmasına, söz ehtiyatının zənginləşməsinə kömək edir, onların fərdi marağını, zövqünü təmin edir. Bu mütaliə istiqamətləndirildiyi və ona lazımi rəhbərlik edildiyi zaman daha təsirli olur. Mütaliə ilə məşğul olan oxucunun dünyagörüşü genişlənir, onda insanlara, təbiətə, gözəlliyə qarşı hislər qüvvətlənir, ailə, dost, yoldaş, vətən haqqında düzgün təəssürat yaranır, yeni həyata, yeni hiss və duyğulara qədəm qoyur. Mütaliə şüurunun formalaşması uşaqlıq dövründən başlayır. Ailə, bağça, məktəb, kitabxana uşağın mütaliə vərdişlərinə yiyələnməsində əhəmiyyətli rol oynayır. Uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilərək onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Müasir uşaq kitabxanalarında ənənəvi və texnoloji iş xüsusiyyətləri tətbiq edilir. Lakin uşaq mütaliəsinin təşkili ənənəvi metodlara daha çox söykənir. Çünki kitabxana işində yeni texnologiyadan formalaşmış təfəkkür istifadə edə bilir. Uşaq təfəkkürü isə tam

formalaşmamış olur. Demək, uşaq təfəkkürünün formalaşması üçün səmərəli mütaliənin təşkili daha vacibdir. Uşaq mütaliəsinə rəhbərlik hər bir oxucuya fərdi yanaşmağı tələb edir. Yəni, kitabxanaçı hər hansı bir şagirdə onun özünəməxsus fərdi cəhətləri ilə hökmən hesablaşmalıdır. Fərdi cəhətlərə qavrayış, hafizə, təfəkkür, fərdi xüsusiyyətlər, maraqlar, meyillər daxildir. Beləliklə, uşaq kitabxanalarında, eləcə də kütləvi kitabxanaları məktəbli oxucuların mütaliəsinə rəhbərlik işi gələcəkdə nəslin yetkin, ziyalı, kamil şəxsiyyət kimi yetişməsində həlledici rol oynamalıdır. Son zamanlar cəmiyyətimizdə daha tez-tez məktəbəqədər yaşlı uşaqların uşaq kitabxanalarına geniş cəlb edilməsi və onların mütaliəsinə gündəlik rəhbərlik edilməsi haqqında sual qaldırırlar. Kitabxanada mütaliə etmək uşağın nitqinin yaxşılaşmasına kömək edir, ona müşahidə etməyi və görməyi öyrədir, psixoloji olaraq onu məktəbə hazırlaşdırır, onda kitaba və biliyə məhəbbət yaradır. Bunların hamısının həyata keçməsi üçün hər şeydən əvvəl kitabxana 4-6 yaşlı məktəbəqədərki uşağı öz oxucusu etməlidir. Buna görə də uşaq bağçalarına gedən məktəbəqədər yaşlı uşaqları kitabxanaya kollektiv təşkil olunmuş şəkildə cəlb etmək olar. Bir çox uşaq bağçaları məktəbəqədər yaşlı uşaqlarla kitabxanaya ekskursiya təşkil edir. Ekskursiyada kitabxanaçılar uşaqlara kitabxanalar haqqında danışır, ən yaxşı uşaq kitablarını göstərir və qiraət keçirirlər. Uşaqların kitabaxanalara cəlb etmək üçün kitabxanaçılar uşaq bağçalarının hazırlıq qruplarının valideyn yığıncaqlarında iştirak etməli, məktəbəqədər yaşlı uşaqların tərbiyəsində kitabın və mütaliənin əhəmiyyətindən, uşaqların kitabxanalara cəlb edilməsinin zəruriliyindən danışmalıdırlar. Uşaq bağçalarına getməyən məktəbəqədər yaşlı uşaqları kitabxanalara cəlb etmək daha da çətin olur. Əsasən bu uşaqlar



xüsusi diqqət tələb edirlər. Belə ki, bu uşaqlar uşaq bağçalarının verdiyi bilik və savadı evdə lazımi dərəcədə əldə edə bilmirlər. Ev şəraitində tərbiyə olunan uşaqların kitab oxuması çox vaxt təsadüfi olur. Onların oxuma dairəsinə heç də həmişə uşaq ədəbiyyatının qızıl fonduna daxil olmuş kitablar düşmür. 4-6 yaşlı, özü kitabxanaya sərbəst gedə bilməyən uşağı kitabxananın aktiv oxucusu etmək heç də asan deyil. Bunun üçün birinci növbədə valideynlərlə işləmək lazımdır. Kitabxanaçı valideynlərlə uşağın hərtərəfli inkişafı haqqında, oxumağın vacibliyi haqqında danışmalıdır. Valideynləri inandırmaq lazımdır ki, uşaq bağçasına getməyən uşaqlar üçün xüsusən kitabxanaya yazılmaq vacibdir. Sübut etmək lazımdır ki, uşaqların maraq dairəsinə və zövqlərinə uyğun seçilmiş kitablar onları məktəbə hazırlamağa kömək edir. Məktəbəqədər yaşlı uşaqları kitabxanaya cəlb etmək üçün ərazilərdə yerləşən uşaq bağçalarından başqa, məktəblərlə əlaqə saxlamaq da kömək edər. Çünki uşaqların sayı haqqında məlumatı bu müəssisələr vasitəsilə əldə etmək olar və bundan sonra məktəbəqədər yaşlı oxucuların kitabxanaya üzvlüyünü artırmaq olar.

**Məktəbəqədər yaşlı uşaqlar ilə bu işi necə təşkil etmək olar? Onlar üçün hansı ədəbiyyatı seçmək lazımdır? Hansı iş metodlarından istifadə olunmalıdır?**

Bu sualların hamısına cavab vermək üçün kitabxana işçiləri məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərini

öyrənməlidirlər. Uşaqlarla iş metodu birinci növbədə yuxarıda qeyd etdiyimiz kimi balaca oxucunun yaş xüsusiyyətlərinə və onun inkişaf səviyyəsinə uyğun seçilir. Yadda saxlamaq lazımdır ki, məktəbəqədər yaşda yüksək məlumat axınının dərk edilməsi baş vermir, bu yaşda bir sıra bacarıq və təcrübə əldə edilir. Uşağın intensiv olaraq səriştəsi inkişaf edir, müəyyən mənəvi xüsusiyyətləri formalaşır, bir sıra xarakterik cizgiləri əldə edilir. Bu yaş dövründə uşaqlarda mənəvi anlayış formalaşır. Onlar artıq öz hərəkətlərini və yad adamların hərəkətlərini qiymətləndirə bilir və onlara qarşı öz münasibətlərini bildirirlər. Məktəbəqədər yaşda olan uşaqlar üçün hissiyat böyük rol oynayır, ancaq bu yaşda olan uşaqlar hələ çox az təcrübəlidirlər. Dünya onlar üçün hələ anlaşılmazdır, lakin buna baxmayaraq eşitdikləri, gördükləri haqqında məlumat almaq və dərk etmək istəyirlər. Buradan da uşaqların böyüklərə "100 niyə?" sualı meydana çıxır. Uşaqların sorğularını cavablandırmaq üçün onlarda kitab və kitabxanaya maraq oyatmaq lazımdır. Kitab uşağın düşüncə və hislərinə, nitq və davranışına təsir edir, yaxşı ilə pisi ayırmağı öyrədir. Bundan başqa kitablarda uşaqlar onlarla fəxr edə biləcək qəhrəmanlarla rastlaşır. Emosiyanın gücü elə yüksək olur ki, uşaqlar öz sevimli qəhrəmanının rolunu oynamağa başlayır. Maraqlısı odur ki, balaca uşaqlar ən fantastik bədii yaradıcılığı dərk edərək reallığı nağıldakı fərqdən yaxşı hiss edirlər.

Kitabxanalarda məktəbəqədər yaşlı oxucularla **ucadan oxu** metodu ilə mütaliə etmək öz geniş əksini tapmışdır. Bu yaşda olan uşaqlara tələsmədən, emosional və anlayışlı oxumaq lazımdır. Ucadan oxuya, ən yaxşısı söhbətdən başlamaq lazımdır. Ancaq ucadan oxu 10-15 dəqiqə davam etsə yaxşı olar, əks halda balaca uşaqların diqqəti mövzudan tez yayınır.

Ucadan oxuya kitabın müəllifindən və ya əsərin janrından başlamaq olar. Sonra nağılı oxumaq lazımdır. Məsələn, Sevinc Nuruqızının "Kirpi balasına ad qoydular" nağılını belə danışmaq olar:

– Siz kirpi görmüsünüz? Bəs onların tikanları əlinizə batıbmı? Amma bir dəfə dovşanın əlinə onun tikanı batmayıb? Bu necə olub? Bax belə...

Ucadan oxuya qulaq asan uşaqlar, tezliklə sərbəst oxumağı öyrənməyə can atırlar. Ancaq bu yaşda olan uşaqlar üçün oxumaq çox böyük əməkdir. Sərbəst oxuma zamanı uşaqlar bütünlüklə kitabı başa düşə bilmirlər, buna görə də kitabxanaçı ilə söhbət oxunulanları başa düşməkdə böyük rol oynadığı kimi, həm də onu emosional dərk etməyə də kömək edir. Ucadan oxudan sonra uşaqlara bu əsərdə ən çox xoşlarına gələni **plastilinlə düzəltməyi və ya rəsmini çəkməyi** təklif etmək olar. Çox vaxt öz düşüncə və hislərini sözlər ilə əks etdirə bilməyən uşaqlar rəsm və ya plastilinlə yapma vasitəsilə çox yaxşı çatdırırlar.

Balaca oxucular qarşısında kitabın bütün sərhədsiz imkanlarını açmaq lazımdır. Kitab onları quşların, heyvanların həyatı ilə tanış edə bilər, "Təbiətdə nə baş verir?", "İnsanlar necə yaşayır və işləyirlər?", "Dünyada hansı ölkələr var?" və s. haqqında danışa bilər. Uşaqlar parlaq təəssüratları sevirlər, buna görə də məktəbəqədər yaşlı uşaqlar ilə işləyərkən **"Barmaqcıq"** və **"Kukla"** teatrından da istifadə etmək olar. Ancaq yadda saxlamaq lazımdır ki, kitabxanada göstərilən bütün tamaşalar kitab təbliğatı ilə əlaqəli olmalıdır: bu ya sevimli nağılın qiymətləndirilməsi, yeni kitab ilə tanışlıq, ya da "Tap görək biz hansı kitabdanıq" oyunu ilə.

Məktəbəqədər yaşlı uşaqlar üçün oyunlar böyük məna kəsb edir. Bu xüsusiyyəti nəzərə almaq lazımdır. Uşaqlar ilə **kütləvi iş zamanı oyunlardan, viktorinalardan, tapmacalardan** geniş istifadə etmək lazımdır.

Məktəbəqədər yaşlı uşaqlar ilə **kitab haqqında söhbət** də məsləhət görülür. Bu hələ müzakirə deyil. Sadəcə olaraq uşaqlar suallara cavab verir, oxunulanlar haqqında özlərinin nə anladıqlarını söyləyirlər. Belə söhbət uşaqların diqqətini cəlb edir, onların aktivliyini artırır.

Bu gün kitabxanada **texniki vasitələrlə** (İnternet siniflər, İnternet klublar, kompüter kitabxanaları) informasiya alınması uşaqlar üçün daha əlverişlidir. Sözsüz ki, kompüterlə gündəlik iş uşaqları xüsusi metodla informasiya almağa yönəldir. Kompüterdən istifadə yeni savad formasını tələb edir. Belə yeniləşmə mütaliəyə rəhbərlik edən kitabxana işçilərindən xüsusi tədqiqatlar aparılmasını və tövsiyələrin işlənməsini tələb edir. Bundan əlavə müasir kitabxanalar kompüter, televizor, video və audio maqnitofonlarla, SD, DVD və kasetlərlə təmin olumuşdur. Qeyd etmək lazımdır ki, kompüterdən 7 yaşına qədər uşaqlar yalnız valideynlərinin razılığı ilə 15-20 dəqiqədən çox olmayaraq istifadə edə bilər. Yaxşı olar ki, balaca oxucularımız kompüterdən hələlik **nağıllara qulaq asmaq, cizgi filmlərinə tamaşa etmək, diqqət və təfəkkürü inkişaf etdirmək üçün** mövcud olan oyunları oynamaq üçün istifadə etsinlər. Və kitabxanaçı bu avadanlıqlardan məharətlə istifadə etməli, onların marağına uyğun olan nağılları oxuculara təqdim etməlidir. Balaca oxucular böyük heyranlıqla, razılıqla **nağıllar əsasında çəkilmiş cizgi filmlərinə** baxırlar. Ancaq uşaqlara cizgi filmi göstərməzdən əvvəl kitabxanaçı özü ona baxmalı, çətin sözləri aşkar etməli və fikirləşməlidir ki, uşaqları necə başa

salmalı, hansı kadrlarda onların diqqətini saxlamalıdır. Nağıla baxılandan sonra kitabxanaçı onlara **suallarla müraciət** edə bilər.

Uşaqlar üçün seçilmiş kitablar öz sadəliyi, parlaqlığı və dəqiqliyi ilə fərqlənməlidir. Bundan başqa, uşaqların başa düşməsi üçün əlverişli mövzular götürmək lazımdır (***uşaqların həyatından, təbiət haqqında, bayram günləri*** və s.).

**Oxumağı bilməyən bir çox məktəbəqədər yaşlı uşaqlar üçün kitab sərgiləri təşkil etmək lazımdırmı?**

Belə fikirləşirik ki, lazımdır. Ancaq bununla məktəblilər üçün təşkil edilən sərgilərdən fərqli olaraq, bir az başqa cür işləmək lazımdır.

Kitabxanaçı sərginin başlığını oxuyur, uşağın diqqətini şəkillərə cəlb edir, sonra isə sərgidə nümayiş olunan kitabın təbliğinə keçir. Uşaqlar üçün olan sərgini böyük həcmli kitablarla ağırlaşdırmaq olmaz. Başlıq qısa və sadə olmalı, böyük səlis şriftlə yazılmalıdır. Sərgidə ancaq tərtibatca gözəl nəşr olunmuş kitablar nümayiş olunmalıdır. Məktəbəqədər yaşlı uşaqlar ilə işləyərkən **oyuncaq-kitablardan** da istifadə etmək olar. Hansı ki, "Oxu və oyna" sərgisinə yerləşdirmək olar. Uşaqlar böyük razılıqla bu qeyri-adi kitablara baxırlar və mətni oxumağa cəhd edirlər.

**Kitabı məsləhət görmək üçün nağıl qəhrəmanlarının oyuncaqlarından da istifadə etmək olar** (Göyçək Fatma, Təpəgöz, Cırtdan, Tıq-tıq xanım, Buratino, doktor Aybolit, Çippolino və s.). Əvvəlcə tanış oyuncağı nəzərdən keçiririk, sonra isə nağılı ucadan oxumağa və ya həmin nağıl haqqında söhbətə başlayırıq.

Uşaqlar üçün “Heyvanlar haqqında”, “Maşınlar haqqında”, “Uşaqlar haqqında” **oyuncaq formasında kartoteka** da düzəltmək olar.

Məktəbəqədər yaşlı oxucularla **fərdi işlər** də keçirmək lazımdır. Məsələn, uşağı kitabxanaya yazarkən kitabxanaçı birinci növbədə uşağın hərfləri tanıyıb-tanımadığını, oxuya bilib-bilməməsini, evdə onun üçün kimin kitab oxumasını öyrənməlidir. Kitabı qaytaranda isə kitabı necə başa düşdüyü, xoşuna gəlib-gəlməməsi mütləq soruşulmalıdır. Məktəbəqədər yaşlı uşaqlarla xüsusilə xoş və nəzakətli danışmaq lazımdır. Çalışmaq lazımdır ki, onda kitaba və qiraətə qarşı məhəbbət, kitabxanaya daha tez-tez gəlmək marağı yaransın.

İlin sonunda isə kitabxanaçı il ərzində işlədiyi oxucularla **oxunulan kitablar haqqında təhlil** keçirməlidir. Belə təhlil kitabxanaçıya gələcəkdə işi düzgün qurmağa kömək edər, uşaqlarda daha böyük uğurla istifadə edilən kitab dairəsini meydana çıxarar, kütləvi işlərin effektliyini təyin edər və buraxılan səhvləri gələcəkdə nəzərə almağa kömək edər.

## III Bölmə: Məktəbəqədər yaşlı uşağın qiraətində əmək, təbiət mövzusu

İnsanın xoşa gələn xüsusiyyətləri onun **əməyə olan münasibətilə** qiymətləndirilir. Buna görə də artıq erkən yaş dövründə uşaqlarda əməyə hörməti öyrətmək lazımdır. Uşaq özü də əməyə məhəbbət göstərməlidir. Onda böyüyə kömək etmək arzusu inkişaf etdirmək lazımdır.

Kitabxana uşaqlarda **əməyə məhəbbəti** kitabların köməyi ilə inkişaf etdirə bilər. Ədəbiyyatda uşaqlar üçün əmək mövzusu daha geniş təqdim olunur. Kitablarla işləyərkən uşaqların diqqətini ona cəlb etmək lazımdır ki, insanların əməyi

nəticəsində bizim həyatımız daha da yaxşı və gözəl olur. Uşaqlarda hər şeyə maraq erkən başlayır. Bu onunla izah olunur ki, uşaq əhatəsində olan hər şeyi dərk etmək istəyir.

**Uşağın gündəlik həyatda qarşılaşdığı informasiya axınından suallar meydana çıxır.** Televizordan, radiodan, böyüklərin danışığından uşaqlar müxtəlif məlumatlar əldə edirlər. “100 niyə?” sualına cavab vermək üçün biz uşaqları kitablarla tanış etməliyik. Kitablarla yaxından tanışlıq onların sorğularını cavablandırmağa həm kitabxanaçıya, həm də oxucuya kömək edər.

Kitabxanaçı oxuculara üz qabığı və səhifələri cırılmış, köhnə kitabların təmiri, yenidən bərpa olunmasını, şirma kataloqunun hazırlanmasını nümayiş etdirməli və gördüyü işlərə onları həvəsləndirməlidir. Bundan sonra kitabxanaçıların köməyi vasitəsilə uşaqlar **“Bizim həyətdə”, “Mənim oyuncaqlarım”, “Məktəbə nə lazımdır”, “Mənim dostlarım”** və s. adlı **şirma kataloqlarını** hazırlaya bilərlər.

Məktəbəqədər yaşlı uşaqlar arasında kitab təbliğatını **təbiət haqqında kitablar** ilə başlamaq olar. Belə ki, bu mövzu uşaqlara daha yaxın və başa düşüləndir. Təbiətlə tanışlıq uşaqların bitki, tərəvəz, meyvə, ağac, gül, heyvanlar, quşlar haqqında bilik və təsəvvürlərini möhkəmləndirir. Təbiətə xüsusi məhəbbətli diqqət, uşaq ikən oynadığı yerlərə bağlılıq onlarda öz doğma diyarına, təbiətə, vətənə məhəbbət hissi yaradır, vətənpərvərlik tərbiyəsini inkişaf etdirir. Təbiəti olduğu kimi görüb, duymaq bacarığının qazanılması üçün onlarda təbiətə dərin maraq oyadır, biliklərini genişləndirir.

***Balaca oxuculardan soruşmaq lazımdır ki, “İlin müxtəlif dövründə bizim meşə və ormanlarımız hansı gözəl rənglərlə parlayır?”, “Vəhşi heyvanların ev heyvanlarından fərqi***

***nədir?", "Təbiətdə neçə quş növü var?" və s.*** "Heyvanlar aləmi. Yırtıcılar", "Heyvanlar aləminin ensiklopediyası", "Quşlar" kitablarından istifadə etməklə oxucuları **təbiətin fauna və florası** ilə tanış etmək olar. Belə kitablarla uşaqları tanış edərək onlarda təbiətə məhəbbət və ona ehtiyatlı münasibəti yaradırıq. Hətta ən balaca oxucular belə başa düşürlər ki, təbiətin sirlərini öyrənmək və hər şeyi bilmək necə maraqlıdır.

Gülzar İbrahimovanın "Tapmaca məndən, açması səndən" kitabı məktəbəqədər yaşlı oxucular üçün əhəmiyyətli bir kitabdır. Bu kitab oxucularda meyvə və tərəvəzlərin adları, onların xarici görünüşü və dadı haqqında geniş təsəvvür yaradır.



Məsələn,

Meyvələrdən hansıdır,
Hər fəsildə tapılar,
Qırmızıyanaq olar,
Yetişəndə saralar
Bəzən də sarı qalar.
Meyvələrin şahıdır,
Ağızların dadıdır?

və yaxud

O nədir ki, əyninə
Çoxlu paltar geyinir,
Soyuq dəyməsin deyə,
Qalın şala bürünür?

tapmacaları oxuduqda artıq oxucuda yuxarıda qeyd etdiyimiz bilgilər yaranır, tapmacanın cavabının alma və kələm olmasını anlayır. Bundan başqa, uşaqların diqqətini kitablardakı təbiət

rəsmlərinə, heyvan və quş şəkillərinə, rəssamın heyvanları necə təsvir etdiyinə baxmağa cəlb etmək lazımdır. Məsələn, körpə heyvanlar köməksiz və məzəlidirlər, ancaq onların hər birində artıq böyük heyvana xas olan hərəkətləri görmək olar. Balaca oxucular ilin fəsilləri ilə əlaqədar olaraq, şəkilli kitablarla da çox maraqlanırlar. Uşaqlar qış fəslində qarın yağmasını, küçələrdə adamların buz üzərində sürüşüb yıxılmasını, qartopu oynamasını, budaqların ağ örpəyə bürünməsini kitablardakı şəkillərdə gördükdə həmin hadisələri yaxşı qavrayaraq nəql edə bilirlər. Kitabxanaçı bu və ya digər hadisələrin şəkil üzrə xarakterini təyin etməyi uşaqlara təklif etdikdən sonra birlikdə həmin hekayəni oxumaya bilər. Şəkillərə baxmaq uşaqların təbiət haqqında biliyini dərinləşdirir və uşaqların qarşısında onlara xas hərəkətləri və həyat tərzlərini açır. Uşaqları vətənimizin təbiətini və gözəlliyini əks etdirən kitablarla tanış etmək hər bir kitabxanaçının borcudur.

## Estetik tərbiyə



Son illərdə məktəbli oxucuları öyrənmək üçün anket üsuluna müraciət edirlər. Anketlər vasitəsilə məktəblilərin ayrı-ayrı tədris fənlərinə və eyni zamanda bu fənlərə kömək məqsədilə

oxuduqları kitablara, incəsənətin müxtəlif növlərinə və dövri mətbuata münasibətləri kompleks şəkilində öyrənilə bilər. Qabaqcıl kitabxanaların təcrübəsi göstərir ki, haqqında da danışdığımız bu üsullardan lazımi dərəcədə istifadə edərək tədqiqat aparan kitabxana işçiləri öz oxucularını ətraflı öyrənməklə mütaliəyə rəhbərlik işini günün tələbləri səviyyəsində qura bilirlər. Əlbəttə, məktəbli oxucuların öyrənmək məqsədilə tətbiq edilən bu üsullara əvəzolunmaz bir qayda kimi baxmaq düzgün olmazdı. Çünki yetişməkdə olan gənc nəsli yeni şəraitdə, yeni tələblər səviyyəsində öyrənmək üçün kitabxanaçıların, pedaqoqların, psixoloqların və sosioloqların qarşısında əlaqəli şəkildə fəaliyyət göstərərək yeni-yeni forma və üsullar tapmaq kimi vacib vəzifələr durur. Yüksək ideyalı bədii və elmi-kütləvi uşaq kitabları yetişməkdə olan nəsildə əxlaqi keyfiyyətlər tərbiyə etməyin ən yaxşı vasitələrindəndir. Məktəbli oxucuların mütaliəsinə rəhbərlik edən hər bir kitabxanaçı bu cəhətdən birinci növbədə bədii uşaq əsərlərinə müraciət etməlidir. Məktəbli oxucularla aparılan kitabxana işində estetik tərbiyə məsələsi heç vaxt unudulmamalıdır. Estetik tərbiyə ədəbiyyatın və incəsənətin əsərlərinin təsiri ilə uşaqlarda estetik hiss oyatmaq, zəhmətkeş insanda və təbiətdə, eləcə də ətraf mühitdə və ictimai həyatda gözəlliyi dərk etməkdə köməklik göstərməkdən ibarətdir. Bu vəzifələri yerinə yetirmək üçün kitabxanaçı məktəblilərin diqqətini bədii əsərlərin poetik tərəfinə, sözün, obrazın gözəlliyinə, əsərin müəllifinin və rəssamının sənətkarlığına yönəlmişdir. Uşaq kitabxanalarında çalışan kitabxanaçılar məktəbəqədər yaşlı oxucuya, məktəbli oxucuya ədəbi əsərlərin dilinin ifadəliyini, təbiət və insan təsvirini, yaradıcı və mübariz insan obrazının gözəlliyini izah etməlidir.

## IV Bölmə: Məktəbəqədər yaşlı oxucular arasında bədii kitablarla iş





Şəxsiyyətin formalaşmasında mütaliənin rolu danılmazdır. Mütaliəsiz müasir oxucunu təsəvvür etmək çox çətindir. Kitab oxumaq insan həyatının inkişafının əsas amillərindən biri kimi daha çox diqqətdədir. **Bədii əsərlər** insanın dünyagörüşünü genişləndirir, nitq qabiliyyətini inkişaf etdirir, mənəviyyatını formalaşdırır. Odur ki, uşaqlarda erkən yaşlardan mütaliə vərdişlərinin formalaşdırılması vacibdir. Müşahidələr göstərir ki, çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. Uşağın yenicə dil açdığı, sözləri və cümlələri anladığı vaxtlarda **şəkilli kitablar** vasitəsilə gözəl oxu vərdişlərini yaratmaq lazımdır. **Biz oxu vərdişinə, bədii yaradıcılığın tərbiyəvi gücünə dərindən inanırıq və uşağın xarakter və mənəvi xüsusiyyətlərinin formalaşmasında birinci köməkçi kimi ona müraciət edirik.** Uşaqlar ilə oxunulan bədii əsərlər haqqında söhbət etmək çox vacibdir. Məktəbəqədər yaşlı uşağın lüğəti hələ məhduddur və o qəhrəmanı xarakterizə edərək tez-tez qısa olaraq “yaxşı” və ya “pis” deyir.

Uşaqla məharətlə söhbət edərək kitabxanaçı ona “yaxşı” sözünün arxasında bir çox şeyi görməyə (***xeyirxahlı, ədalətli,***

***doğruçu, ciddi olmağı*** və s.) kömək edir. Belə söhbətlər bizim oxucunu tədricən hadisələri və qəhrəmanı xarakterizə etməyi öyrədir.

Məktəbəqədər yaşlı uşağın qiraətində **nağıllar** böyük rol oynayır. Nağıl qəhrəmanlarının parlaq obrazları ilə biz uşaqlarda ***dostluq və məhəbbət, namuslu olmaq və doğruluq, şərə və ədalətsizliyə nifrət kimi böyük insani hislər*** oyada bilərik.

Nağıllar qədim mədəniyyətimizin mənəvi sərvəti, yaddaş salnaməsidir. Dünyada elə bir xalq yoxdur ki, o nağıl yaratmamış olsun. İnsan öz həyatını, arzu və düşüncələrini, xeyrin şər üzərində qələbəsinə inamını nağıla çevirməkdən xüsusi zövq almışdır. Dünyada elə uşaq tapılmaz ki, o nağıl sevməsin. Uşaq qədim mədəniyyətimizin mənəvi sərvətini sevir, dərk edir və özünə lazımi nəticələr çıxarır. Nağılın oxucu üçün əhəmiyyəti çox böyükdür. Nağıl oxumaq balaca oxucunun ilk növbədə lüğətini çoxaldır. Belə ki, nağıl dili böyük canlılığı ilə fərqlənir, onda bənzətmələr və obrazlı ifadələr boldur. "Çaşıoğlu" mətbəəsində çap olunan "Nağıllar" (Azərbaycan xalq nağılları) kitabındakı **"Cırtdan", "Cik-Cik xanım", "Tülkü və hacıleylək" nağılları, "Sevimli nağıllar" kitabındakı "Süleyman və qarışqa", "Zirək oğru", "Əliyarla dovşan", "Ağ quş"** nağılları məhz balaca oxucuların zövqünü oxşayır, qəhrəmanları onlara sevdirir, yaxşı ilə pisi, xeyir ilə şəri başa salır. Oxuculara oxuduqlarını daha yaxşı yadda qalması və dərindən dərk olunması məqsədilə **nağılla bağlı sorğu və tapşırıqların verilməsi** məqsədəuyğundur. Yəni, kitabın içindəki nağılların qəhrəmanlarını əks etdirən **rəsmlər çəkib sərgi düzəltmək, nağıllarla bağlı suallar hazırlamaq və bundan sonra uşaqlar ilə söhbət edərkən onları nağılın mənasını necə başa düşdüklərini aydınlaşdırmaq** lazımdır.

Məsələn, Şarl Perronun məşhur “Qırmızıpapaq” nağılını oxuduqdan sonra oxuculara aşağıdakı suallarla müraciət etmək olar:

1. “Qırmızıpapaq” adını ona kim verib?
2. Qırmızıpapağın nənəsinin evi haradadır?
3. Qurd Qırmızıpapağın nənəsini necə aldatdı?
4. Qırmızıpapaq qurdu niyə tanımadı?

***Suallara cavab aldıqdan sonra kitabxanaçı nağıldakı hadisələri və qəhrəmanların şəkillərini oxuculara çəkməyi təklif edə bilər.***

Məktəbəqədər yaşlı uşaqların qiraətinə **müasir nağıllar**ı da daxil etmək lazımdır. **“100 sevimli nağıl”** kitabını xüsusilə qeyd etmək olar. “100 sevimli nağıl” seriyasından olan kitablar məktəbəqədər və kiçik yaşlı uşaqların mütaliə vərdişlərini, oxuyub anlama bacarığını formalaşdırır. Bu kitablarda hər bir nağılın sonunda həmin nağılın daha da dərindən dərk edilməsi və yadda saxlanması üçün **müxtəlif tapşırıqlar** təqdim olunur. Tapşırıqların yerinə yetirilməsi balaca oxucuların şəxsi yaradıcılıq qabiliyyətinin inkişafına təkan verir. Nağılı oxuduqdan sonra uşaqlar buradakı hadisələr və qəhrəmanlarla bağlı **testlər**i yerinə yetirməli, hadisələrin ardıcıllığını düzgün müəyyən etməli, ilk dəfə rastlaşdıqları sözləri qeyd edərək onların mənasını araşdırmalı, **nağıl xəritəsi** tərtib etməlidirlər. Bundan başqa, ***Sevinc Nuruqızının “Ciya ilə iki gün”, “İpəkcənin macəraları”, Gülzar İbrahimovanın “Nağıllar”, “Göy qurşağı qardaşlarının yeddi nağılı”, “İlanlı dərənin sirri”, “Təmraz və Gün”, “Su pərisi”, Qəşəm İsabəylinin “Elnur, Əkil və onların başına gələnlər”*** və s. kitabındakı nağılları oxucularla tanış etmək lazımdır. Bir çox nağıllarla tanış olduqdan sonra uşaqlar üçün “Biz hansı nağıldanıq” viktorinası

keçirmək olar. Ayrı-ayrı mətn hissələrindən və şəkillərdən nağılın və ya onun qəhrəmanının adını deməlidirlər. Belə oyunlar üçün uşaqların ən yaxşı rəsmlərindən də istifadə etmək olar.

Xalq yaradıcılığına, folklora oxucularda maraq və məhəbbət oyadılmasında uşaq kitabxanalarında **nağıl otağının** təşkilinin böyük rolu vardır. Nağıl otağını ***nağıl və dastanlara, təmsillərə çəkilmiş illüstrasiyalarla, süjetli şəkillərlə*** bəzəmək məsləhətdir. Bundan başqa, nağıl otağında **nağıllarımız əsasında çəkilmiş cizgi filmləri** toplanıb oxuculara nümayiş etdirilə bilər. Bunlar birinci növbədə nağılın mövzu və ideyasının asan başa düşülməsi üçün təsirli vasitədir. Bu cür vasitələr oxucunun bədii təxəyyül və təfəkkürünə qida verir, ədəbi marağın artmasına müsbət təsir göstərir.

Kitabxanaçılar məktəbəqədər və kiçik yaşlı oxucularımıza nağıl kitablarından başqa, onlar üçün çap olunan “Göy qurşağı”, “Sehrli dünya”, “Qönçə”, “Göyərçin”, “Cırtdan”, “Qaranquş”, “Yuva” və s. jurnallarını oxumağı da tövsiyə edə bilər. Jurnallarda olan **nağıl və hekayələr, maraqlı bilməcələr, təbiət haqqında bilgilər** oxucularda mütaliə vərdişini daha da artırır, onların maraq dairəsini genişləndirir.

Qədim dövrlərdən bu günə qədər kitab qədər geniş yayılan ikinci bir bilik mənbəyi yoxdur. Kitab yarandığı gündən insanın yaxın dostu və məsləhətçisi olmuşdur. Uşaqları kitaba oxumağa həvəsləndirmək, onlarda mütaliəni formalaşdırmaq üçün kitabxanalarda keçiriləcək tədbirlərin ən əhəmiyyətlisi “Kitab Bayramlar”ının keçirilməsidir. Çünki kitab bayramında oxucuları **kitab sərgiləri** ilə tanış etmək, onları sevdikləri nağıl qəhrəmanları ilə görüşdürmək, onlarda kitab və kitabxanaya

marağı daha da gücləndirir. **“Kitab Bayramı”**nın keçirilməsi bütün yaş qrup oxucularının maraq dünyasını əhatə etməlidir.

Belə ki, bu bayramı keçirtmək üçün ilk əvvəl Kitab Bayramının simvollarını özündə əks etdirən emblemlər hazırlanmalı, gözəl və nəfis tərtibatlı uşaq ədəbiyyatını sərgiləri və bayramın mövzusunu özündə əks etdirən plakatlar təşkil olunmalı, görkəmli iş adamları, uşaqların sevdiyi şair və yazıçılar, uşaq mahnı və rəqs ansamblları, kukla teatrının aktyorları bayramda iştirak etməli, oxucular tərəfindən nağıllar, əsərlər əsasında hazırlanmış qısa səhnələr göstərilməlidir. Kitab Bayramını keçirməmişdən əvvəl kitabxanaçılar oxucular arasında bayramın mövzusuna həsr olunmuş **rəsm, şeir müsabiqəsi, viktorinalar** hazırlamalıdır. Müsabiqənin qalibinin kitabxananın müdiriyyəti tərəfindən bayramda açıqlanması və müsabiqə iştirakçılarına hədiyyələrin təqdim olunması bayramı daha da təmtəraqlı və rəngarəng edər.

**Uşaq kitabxanalarında mütaliəyə rəhbərlik aşağıdakı vəzifələri həyata keçirir:**

a) uşaqların ümumi tərbiyəsində və uşaq şəxsiyyətinin hərtərəfli inkişafında kitabın və kitabxanaların rolunu yüksəltmək;

b) biliklərin inkişafına, xarakterin formalaşmasına onların gələcəyə inamına və hissiyatına kömək etmək;

c) uşaq oxuculara mütaliə sənətini öyrətmək;

d) oxuduqlarını düzgün və prinsipial şəkildə dərk etmək;

e) şəxsi həyatda, əməkdə, təhsildə kitabdan səmərəli istifadə etmək;

ə) kitabxanadan istifadə etməyi bacarmaq.

Kitabxanaların uşaqlarla apardığı tərbiyəvi işin xüsusi əhəmiyyəti bir də ondan ibarətdir ki, uşaqlıqda hər bir kitab ciddi

qəbul olunur və dərin iz buraxır. Görkəmli elm və mədəniyyət xadimləri uşaqlıqda oxuduqları kitabların onlara təsirini xüsusi qeyd etmişlər. Uşaqların mütaliəsinin pedaqoji qaydalar əsasında düzgün təşkili məsələsi dövlətin, eləcə də cəmiyyətin diqqət mərkəzinə olan problem kimi qəbul edilir. Təsadüfi deyildir ki, məktəbəqədər yaşlı oxucuların, məktəbli oxucuların mütaliə sorğularını ödəmək üçün dövlətin xüsusi qayğısı sayəsində ən ucqar rayonlardan başlayaraq mərkəzi şəhərlərə qədər geniş şəbəkəyə malik olan uşaq kitabxanaları şəbəkəsi meydana gəlmişdir. Hazırda ökəmizdə kifayət qədər müstəqil uşaq və məktəb kitabxanası fəaliyyət göstərir. Hal-hazırda uşaq kitabxanaları yetişməkdə olan nəslin düzgün tərbiyəsi və təhsil sistemində qabaqcıl yerlərdən birini tutur. Uşaq kitabxanaları məktəblilərin sistemli mütaliəsini təşkil edərək onların maraqlarının oyanmasına və bu marağın istiqamətlənməsinə təsir göstərir. Mütaliə üçün ideya bədii cəhətdən ən yaxşı kitabları tövsiyə edir. Bununla uşaq kitabxanaları müasir cəmiyyət üçün bacarıqlı və fəal qurucular tərbiyə etməkdə ailələrə, məktəbə və dövlətə yaxından köməklik göstərirlər. Bu köməklik başlıca olaraq gənc oxucuların ideya-siyasi cəhətdən tərbiyəsində, əmək tərbiyəsində, əqli inkişafında eyni zamanda əxlaq və estetik tərbiyəsinə öz parlaq təzahürünü tapır. Məktəbli oxucuların əxlaq tərbiyəsi ilə estetik tərbiyəsi üzvi surətdə əlaqədar olduğu üçün uşaqların ümumi tərbiyəsində bunları əlaqəli şəkildə nəzərə almaq lazımdır. Bu tədbirlər məktəblərin əqli inkişafı ilə əlaqədar həyata keçirilir. Bütün bunlar məktəbəqədər yaşlı oxucularla, məktəbli oxucularla müntəzəm aparılan fərdi iş prosesində həyata keçirilə bilər.

## Ədəbiyyat siyahısı

### *Kitablar*

**ABŞ və Rusiya** kitabxanalarının iş təcrübəsində uşaq mütaliəsi məsələləri (ABŞ və Rusiya Uşaq Kitabxanalarının fəaliyyətinə dair nəzəri məqalələr əsasında : Tədris-metodiki vəsait / Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Bakı Dövlət Universiteti. - Bakı : BDU-nun nəşriyyatı, 2005. - 51 s.

**Müasir Uşaq Kitabxanalarının** vəzifələri : Rusiya Dövlət Uşaq Kitabxanasının fəaliyyəti F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iş təcrübəsi ilə müqayisədə elmi-tədqiqat işi. - Bakı : [s. n.], 2013. - 62 s. – Kitabda mütaliə problemləri də tədqiqat obyekti kimi təqdim olunur.

**Oxu! - yaşamaq** üçün.. - Bakı : Kövsər, 2007. - 128 s. : şək. - (Məktəblinin kitabxanası).

**Qunhus C.** Tənbəl oxucunu mütaliəyə həvəsləndirmək. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 56 s.

**Söz, kitab, mütaliə,** kitabxana və kitabxanaçı haqqında müdrik fikirlər. - Bakı : Mütərcim, 2014. - 188 s.

### *Dövri mətbuatda*

**Ağayeva A.** Zamanı itirməyək : Gəlin zamanı sevgisiz, ümidsiz, qayğısız keçirməyək, mütaliəsiz, elmsiz qoymayaq! Beləcə, "zaman içində zaman qazanaq". Bir həqiqəti də unutmayaq ki, insan zaman sərhəddini aşıb əbədiyyət qazanmaqçün yaradılmışdır... // İşıq. - 2017. - № 4. - S. 62-64.

**Allahverdiyeva B.** Şagirdlərdə kitaba marağı, mütaliə vərdişlərini necə formalaşdırıram // Azərbaycan Müəllimi. - 2017. - 18 fevral. - № 6. - S. 12.

**Fərəcova Z.** Yay tətilində uşaqlara kitab da oxutdurmaq lazımdır : Bu, onların mütaliəyə maraqlarını artırır // Azərbaycan. - 2017. - 5 avqust. - № 168. - S. 7.

**Qasımova G.** Şagirdlərdə mütaliəni daxili tələbat kimi necə formalaşdırmalı // Kurikulum. - 2017. - № 4. - S. 58-64.

**Məhərrəmova T.** Şagirdlər nə oxusun? : Yay tətili dövründə şagirdlərin mütaliəsinin təşkili ciddi problem olaraq qalır // Kaspi. - 2017. - 14 iyun. - № 105. - S. 9.

**Məmmədova L.** Azərbaycanın kitabsevər uşaqları üçün : uşaq mütaliəsinin inkişafı sahəsində layihələr haqqında // Mədəniyyət. - 2018. - 13 aprel. - № 29. - S. 10.

**Mükərrəmoğlu M.** Milli Kitabxanada beynəlxalq konfrans : V Beynəlxalq Sərgi-Yarmarkası çərçivəsində Azərbaycan Milli Kitabxanasında (AMK) "Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər : kitab, mütaliə, innovasiyalar" mövzusunda Beynəlxalq elmi konfrans keçirilmişdir // Xalq qəzeti. - 2017. - 30 sentyabr. - № 213. - S. 10.

**Salmanlı R.** Mütaliə uşaqları daha bilikli edir : [Beynəlxalq Kitab Bağışlama Günü] // Azərbaycan. - 2018. - 15 fevral. - № 35. - S. 11.

**Səlimova A.** İbtidai sinif şagirdlərinin asudə vaxtlarının səmərəli təşkili yolları // Məktəbəqədər və ibtidai təhsil. - 2017. - № 2. - S. 34-37.

***Kiçikyaşlılar üçün nəzərdə tutulmuş elektron resurslar***

**Acgöz ayı balaları**. - Bakı : Çaşıoğlu, 2009. - 8 s. : rəngli il. ; 12 sm + 1 el.op.disk (CD-DA).

**Aldanmış canavar**. - Bakı : Çaşıoğlu, 2009. - 4 s. : rəngli il. ; 12 sm + 1 el.op.disk (CD-DA).

**Amanova S.** Əlifba [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : rəngli, səsli ; 12 sm. - (qutuda).

**Amanova S.** Əlifba 2 [Elektron resurs] : nağıl. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk(CD-DA) ; 12 sm. - (qutuda).

**Amanova S.** İlmənin macəraları [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : rəngli, səsli ; 12 sm. - ("İrs" silsiləsi). - (qutuda).

**Amanova S.** Xurcun [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : rəngli, səsli ; 12 sm. - (İrs). - (qutuda).

**At və canavar** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Canavar və durna** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Amanova S. Əlifba** : Yazmağı və oxumağı öyrənirəm. İş dəftəri №2. - Bakı : OSKAR NPM, 2012. - 36 s. : rəngli foto, rəngli il. ; 27 sm + 1 el. opt. disk (CD-DA). - "Əlifba" köməkçi dərs vəsaitidir.

**Ən uzun qulaq**. - Bakı : Çaşıoğlu, 2009. - 8 s. : rəngli il. ; 12 sm + 1 el.op.disk (CD-DA).

**Gökduman N. A.** Qızılgül nağılları. - Bakı : Qələm MMC, 2013. - 72 s. : şək. - (10 nağıl).

**Kobud ayı** [Elektron resurs]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Qırmızıpapaq** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Qızılquş**. - Bakı : Çaşıoğlu, 2009. - 8 s. : rəngli il. ; 12 sm + 1 el.op.disk (CD-DA).

**Lovğa tülkü** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

**Mənim ilk şəkilli** sözlü kitabım [Elektron resurs] / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ; məsl. Ə. Əhmədov [et al.]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : rəngli ; 12 sm. - (Nizami layihəsi). - - (qutuda).

**Toyuq. Ördək və** Siçan [Elektron resurs] : Nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Tülkü və dolça** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Tülkü və qarışqa** [Elektron resurs] : Nağıl / red., tərc.ed. R. Soltanqızı, rəs. N. Abdullayeva. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Xoruzun hiyləsi** [Elektron resurs] : nağıl. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2013. - 1 el. opt. disk (CD-DA) : səsli nağıl ; 12 sm. - (qutuda).

**Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik**

(metodik vəsait)


**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**



F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 50
Çapa imzalanmışdır: 10.09.2018
Tirajı:100
Pulsuz